# Xilaskarlıq missiyasının təsdiqi



*Azadlıq və müstəqillik həm ayrı-ayrı vətəndaşlar, həm də bütövlükdə xalqlar, millətlər üçün ən müqəddəs nemətdir. Azərbaycan xalqı da uzun illər boyunca bu yolda qəhrəmanlıq salnamələri yazaraq mübarizə aparıb, şəhidlər verib. Amma müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq da bir o qədər mürəkkəb və ağırdır. 1991-ci ilin oktyabrında müstəqilliyini bərpa edən respublika 1993-cü ilin iyununa qədərki müddətdə böhran, xaos və anarxiya, çaxnaşmalarla qarşılaşmış, mövcud durum son dərəcə kəskinləşmişdi. Belə ağır və çıxılmaz vəziyyətdə Azərbaycanın əsl xilaskara ehtiyacı vardı.*

Hamıya gün kimi aydın idi ki, nə ovaxtkı iqtidar, nə də həmin dövrdə hakimiyyətə iddialı olan müxtəlif qüvvələr ölkəni düşdüyü iflic vəziyyətdən çıxara bilməyəcəklər. Belə ağır durumda xalq ayağa qalxdı və əldən getməkdə olan müstəqilliyinin nicatı üçün ümummilli lider Heydər Əliyevi təkidlə Naxçıvandan Bakıya dəvət etdi. Millətin çağırışına, taleyinə heç vaxt biganə olmayan Ulu Öndər 1993-cü il iyunun 9-da respublika paytaxtına gəldi və iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin sessiyasında Ali Sovetin sədri seçildi. Həmin iclasda Ulu Öndər çıxış edərək tarixi nitq söylədi: "Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".

1993-cü il iyunun 24-də Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri Ali Sovetin sədri Heydər Əliyevə verildi. Ümummilli liderin ölkə rəhbərliyinə böyük qayıdışı siyasi-iqtisadi böhran məngənəsində boğulan Azərbaycanı fəlakətdən xilas etdi. Ulu Öndər ölkədə tüğyan edən hərc-mərclik, vətəndaş müharibəsi, qeyri-qanuni fəaliyyət göstərən silahlı dəstələr və digər xoşagəlməz mənfi amillərin qarşısının alınması üçün həyatını təhlükə altına ataraq kəskin və qəti mübarizəyə başladı. Qısa zaman kəsiyində bu neqativ ünsürlərin özbaşınalığının qarşısını birdəfəlik aldı, qanunsuz silahlı dəstələr tərksilah edildi. Azərbaycan parçalanmaq təhlükəsindən xilas oldu. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən ümummilli lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz". Dahi şəxsiyyətin müdrik siyasətinin nəticəsi idi ki, ölkəmiz bir dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsindən xilas oldu, müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhran aradan qaldırıldı və inkişafın təməli qoyuldu.

Bütün bunların fonunda deyə bilərik ki, 15 iyun tarixi Azərbaycan xalqının gələcək həyatını müəyyən edən böyük başlanğıcların əsasının qoyulduğu gün hesab olunur. Məhz bu səbəbdən 1997-ci il iyun ayının 27-də Azərbaycan Respublikasının Milli Məclisi Ulu Öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də ölkə rəhbərliyinə qayıdışı gününü Azərbaycan xalqının Milli Qurtuluş Günü elan edilməsi haqqında qərar qəbul edib. Milli Məclisin həmin tarixi qərarında deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi".

Milli Məclisin həmin tarixi qərarında deyildiyi kimi, Heydər Əliyev Azərbaycanı, Azərbaycan xalqını məhv olmaqdan qurtarmaq üçün "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" dedi. Bu çətin, ağır mərhələ Azərbaycanın bir dövlət kimi, azərbaycanlıların isə bir xalq kimi gələcək mövcudluğunun əsasını qoydu. Ümumiyyətlə, Milli Qurtuluş Günü bugünkü reallıqlarımızın başlanğıc tarixi oldu. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi işıqlı və firavan görünür. Çünki müstəqil dövlətimiz Ulu Öndər Heydər Əliyevin siyasi varisi qalib Ali Baş Komandan İlham Əliyev tərəfindən idarə olunur. Ölkə başçısı ötən 20 il ərzində Ulu Öndərin təməlini qoyduğu siyasi-iqtisadi kursu qloballaşan dünyanın tələblərinə uyğun olaraq inam və ardıcıllıqla davam etdirir. Onun rəhbərliyi ilə Azərbaycan dünyada böyük nüfuza, iqtisadi gücə malik ölkə kimi tanınır.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**